Turkiyənin İstanbul şəhərində keçirilən turnirə Azərbaycanla yanaşı Özbəkistan, Türkiyə, Qırğızıstan, Ukrayna, Rusiya, Kipr Türk Respublikası, Bolqarıstan, Qazaxıstan və Moldovadan gəlmiş 18 komandanın 200-dən artıq idmançısı qatılıb. Azərbaycan turnirdə 8 idmançı ilə təmsil olunub.

Turnirin nəticələrinə əsasən, Gimnastika Məktəbinin yetirmələrindən 6 yaşlı gimnastlar arasında Aylin Qulubəyova I yeri, 8 yaşlı gimnastlar arasında Nuray Həsənzadə III yeri, 10 yaşlı gimnastlar arasında Jalə Quliyeva II yeri tutub.